# Azərbaycan Avstraliya ilə əlaqələrin inkişafına böyük önəm verir



"Azərbaycan Avstraliya ilə iqtisadi sahədə əlaqələri gücləndirməkdə çox maraqlıdır". Bu sözləri Milli Məclisin Sədri Oqtay Əsədov Avstraliya Parlamentinin nümayəndə heyəti ilə görüşündə səsləndirib.

Oqtay Əsədov bildirib ki, qarşılıqlı səfərlər iki ölkə arasındakı münasibətləri daha da möhkəmləndirir. Azərbaycan müstəqil ölkə olandan sonra Avstraliya ilə əlaqələr qurub. Lakin bu əlaqələr hələ də istənilən səviyyəyə çatmayıb. İndiyədək ölkələrimiz arasında bir sənəd imzalanıb, üç sənəd isə imzalanma ərəfəsindədir: "İqtisadi sahədə əməkdaşlığımız ölkələrimizin potensialına uyğun deyil. Buna görə də bu sahədə əlaqələri gücləndirmək vacibdir. Azərbaycan tərəfi bu məsələdə çox maraqlıdır".

O.Əsədov qonaqların çox əlamətdar bir vaxtda - I Avropa Oyunlarının keçiriləcəyi ərəfədə ölkəmizə gəldiklərini vurğulayıb. O, son illərdə Azərbaycanın nail olduğu sürətli iqtisadi inkişafdan danışıb. Qeyd edib ki, Azərbaycan investisiya qoyulan ölkədən investisiya yatıran ölkəyə çevrilib. Azərbaycan Avstraliyanın qiymətli kağızlar sahəsinə də investisiya qoyub.

Görüşdə parlamentlərarası münasibətlərdən də söz açılıb. Milli Məclisin Sədri ümidvar olduğunu bildirib ki, yaxın zamanlarda Avstraliya Parlamentində də Azərbaycanla dostluq qrupu yaradılacaq.

Sədr Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışaraq deyib ki, bu məsələnin həlli ilə bağlı ATƏT-in Minsk qrupu fəaliyyət göstərir. Amma təəssüf ki, hələ də bir nəticə əldə olunmayıb.

Avstraliya Parlamentinin nümayəndə heyətinin rəhbəri, Avstraliya Parlamentinin üzvü Lük Simpkins isə Azərbaycanda olmaqdan böyük şərəf hissi duyduqlarını bildirib. O, Azərbaycan xalqının qonaqpərvərliyini, yüksək mədəni keyfiyyətlərə malik olduğunu vurğulayıb. Qonaq Milli Məclisin binasına olan heyranlığını da gizlətməyib.

Görüşdə Ermənistanın təcavüzkar siyasəti, erməni lobbisinin Azərbaycana qarşı qərəzli fəaliyyəti və s. barədə də danışılıb.

***Elgün MƏNSİMOV,***
***Fərman BAĞIROV (foto)***
***"Azərbaycan"***